# Türküstan çinarı Yoldaş Eşbək

*Çağdaş özbək şeirinin tanınmış nümayəndəsi Yoldaş Eşbek 1952-ci ildə Səmərqənd vilayətinin İştixan rayonunun Bəytabi kəndində dünyaya gəlmişdir. 1977-ci ildə Daşkənd Dövlət Uni-*



*versitetinin filologiya fakültəsini bitirmişdir.Müxtəlif vaxtlarda nəşriyyatda və jurnallarda korrektor və redaktor, Korlar Cəmiyyətində və texniki-peşə məktəbində müəllim, idman qəzetində tərcüməçi, Özbəkistan Dövlət Nəşriyyat Komitəsində redaktor, Yazıçılar İttifaqında məsləhətçi işləmişdir. 1994-2003-cü illərdə "Gənclik" jurnalının baş redaktor müavini və baş redaktoru vəzifəsində çalışmışdır. Hazırda təqaüdçüdür.*

"Həsərətlə yaşaram" adlı ilk kitabı 1981-ci ildə çapdan çıxmışdır. Daha sonra "Yüksək ağaclar" (1985), "Mavi durnalar" (1987), "Yaxşılığa baxıram" (1988), "Ağaclar nağılı" (1989), "Həyat çiçəyi"(1990), "Əbədiməsafə" (1991), "Lalələr açıldı" (2018), "Ağlayan qız" (2019), "Gözbəbəyim" (2020), "Vətən nədir?" (2021) adlışeir kitabları nəşr edilmişdir. O həm əruz, həm də heca vəznində yazır, ara-sıra sərbəst vəzndən də istifadə edir.

Əsərləri başqa dillərə çevrilmişdir. Miçiqan Universitetinin professoru Timur Qocaoğlu onun şeirlərini ingilis dilinə çevirmiş, nəticədə Yoldaş Eşbəyin şeirləri dünya üzrə ən nüfuzlu "Top 500 Poet" antologiyasına daxil edilmişdir. 2015-ci ildə onun "Məngü məsafə" (Əbədi məsafə) kitabı Ankarada türkcə işıq üzü görmüşdür. Yoldaş özü də tərcümə ilə məşğul olmuş, İmam Qəzalinin "Ey fərzənd", Əhməd Lütfinin "Ögey ana", Fatimə Teymurun "Könül dostlari", Əminə Şəngoğlunun "Vicdan əzabı" kitablarını, Olcas Süleymenovun və digər ədiblərin əsərlərini özbək dilinə tərcümə etmişdir.

Yoldaş Eşbək incə ruhlu lirik şairdir, eyni zamanda sovet dövründən bəri vətənçi və millətçi, Özbəkistan və Türküstan yurdsevəri, türkçü və turançı sənətkardir. Onun poeziyasında ana təbiət, gül-çiçək, dağ-dərə, torpaq-səma, eləcə də insanın eşqi və həsrəti, arzu və ümidləri, hiss və duyğuları, bunlarla yanaşı xalq və millət, azadlıq və istiqlal yan-yana, iç-içədir. Onun əsərləri təbiət-fərd-millət-vətən motivləri ilə yoğrulmuşdur.

Yoldaş Eşbək bizim müasirimiz, yoldaşımız, qandaşımız və qardaşımızdır. Kökləri torpağın dərinliklərinə işləmiş 70 yaşlı ulu Türküstan çinarıdır. Bu çinar rişəsini və qüvvəsini ana torpaqdan, böyük Özbəkistandan və əbədi Türküstandan, yenidən dirçələn Türk Dünyasından, Turandan alır.

***Dostumuz və ustadımız Yoldaş Eşbəyi 70 illiyi münasubətilə ürəkdən təbrik edir, ona uzun və sağlam ömür, coşğun ilham və yaradıcılıq uğurları arzulayır, bir neçə şeirini oxucularımıza təqdim edirik.***

**Prof. Dr. Ramiz Əskər.**
**Bakı Dövlət Universiteti türkologiya kafedrasının müdiri, Özbəkistanın "Dostluq" ordeni sahibi, Beynəlxalq "Babur" mükafatı laureatı, Nəvayi şəhərinin fəxri vətəndaşı, "Turan" Elmlər Akademiyasının həqiqi üzvü.**



İstərik

Məni